# "Bir adamlıq şəhər"




**Ötən şənbə günü çoxdan görüşmədiyim qələm dostum, bir-birimizə ərklə "əmioğlu" deyə müraciət etdiyim İlham Qəhrəman gəlmişdi redaksiyamıza. Hələ onun gəlişindən əvvəl paylaşmalarından xəbər tutmuşdum ki, yeni kitabı işıq üzü görmüşdü. Bu gəliş isə mənim üçün göydən düşmə oldu. Yəni şair əmioğlumun üzbəüz təbrik etmək imkanı qazandım. O da öz növbəsində borclu qalmadı. Çantasından çıxarıb həmin o yeni kitabı, yəni "Bir adamlıq şəhər"i səmimi bir avtoqrafla - "Dəyərli qələm dostu və əmioğlu Ə.Mədətoğluna Qarabağda görüşmək arzusu ilə müəllifdən" yazıb bağışladı mənə.**

Buradaca vurğulayım ki, mənim üçün hər yeni kitab dünyaya gələn yeni bir övladdır. Ona görə də İlham əmioğluma ürəkdən göz aydınlığı verdim. O gedəndən sonra əlimdəki işimi bir kənara qoyub başladım "Bir adamlıq şəhər"də gəzişməyə. Bir də gördüm ki, kitabın işığında, daha doğrusu, misraların qanadında bu şəhərin bir xeyli hissəsini artıq gəzib dolaşmışam. Özü də yorulmadan, incimədən... Əksinə, havalı kimi gəzmişəm. Çünki:

*Qəfil güllə kimi gələr sevgilər,*
*qəfil yağış kimi, isladar bizi.*
*Körpə uşaqları buyruq dalınca*
*Göndərən şirnitək aldadar bizi...*

Bəli, bir anlıq o uşaqlıq, o aldandığım günlər və bir də mənim də uşaqları aldatdığım günlər yadıma düşdü. O günlər ki, onun öz ləzzəti, öz xatirəsi, öz şirinliyi var...

*İçində sevgidən yanıq yeri var...*
*Heç kəsə baxmarsan sən baş qaldırıb.*
*Qorxarsan eşq gələ - od yeri yoxdu.*
*Qəfil güllə kimi gəlir sevgilər,*
*Sandığa girsən də xeyri yoxdu!*

Hə, bu elə bir dəqiq ifadədir ki, onu yozmağa, onu şərh etməyə məndə də indiki anda deyəsi söz yoxdu. Axı, mənim inancıma görə yaşamağımın səbəbi məhz o qəfil gələn sevgidi!

İlhamın şeirlərinin təkcə hər bir arasında yox, hətta misralarının arasında pıçıltıya bənzər bir sevgi axını var. O sevgi axını misraları bir-birinə qovuşdurduğu kimi bir oxucu olaraq mənim də ruhumu haldan-hala sala-sala, dünənimi bu günümə calayır. Axı İlham deyir ki:

*Gözü qara,*
*cənnət tanıtdığın yerdə*
*cəhənnəm tanımağın nədi?!*
*Məni bir güllə yıxacaq*
*dalbadal atmağın nədi?!*

***

*Gözü qara,*
*sevgi iki nəfərlik oddur -*
*olarmı heç iynə yansın, sap yanmasın?!*
*Kəsiləndə barmaq varmı qan çıxmasın,*
*səbr gələndə göz varmı qapanmasın?!*

Mən "Sevgi ştrixləri"ndən gətirdiyim bu nümunəni sizin ixtiyarınıza verirəm. Ona görə ki, onlar bir ünvana yönəldilsə də, əslində o ştrixlərdən hər kəsə bir sual payı düşür. Oxuyanda (əgər duyğusalsansa - Ə.M.) onda özün öz sualını və cavabını da içində müəyyənləşdirəcəksən. Elə buradaca fikrimə bir aydınlıq gətirim. O "Aydınlıq"ı da özünün, yəni müəllifin dilindən çatdırıram sizə:

*Gedirsən uzaqlara,*
*gerini düşünmədən, -*
*gedirsən arxayınca.*
*Üzülmə ağlamaram -*
*gözlərim vərdiş edib*
*su səpirlər ardınca.*

Bəli, vərdiş həm yaxşı haldı, həm də özü qədər ürəyə əzab verən bəlkə də ikinci bir hal yoxdu. Çünki görüş yeri, gözlədiyin an xatirəyə çevriləndə ürəyin yarası olur. Sən o adətə, o vərdişə sanki barmaqlar arasından baxırsan. Bax, bunu heç bir sevənə arzu etmirəm. Görüş vərdişi həyat gerçəkliyi olanda onun yoluna su səpilir, arxasınca yox.

Mən "Bir adamlıq şəhər"də iki tində də dayanmdım. Birincisi, "Müharibə" idi. Əmioğlum yazmışdı ki:

*Müharibə qəribədir*
*Hər kəs öz vəznində olur, -*
*Hər gedən bir işə gedir.*
*Kimi şəkil çəkdirməyə,*
*Kimisi döyüşə gedir.*

Bu mənim də yaşadığım, şahidi olduğum bir gerçəklikdi. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə can sağlığı versir. Çünki onlar döyüşə getmişdilər. Elə İlham Qəhrəmanın özü kimi.

"Bir adamlıq şəhər"in dayandığı ikinci tini isə "Şirinlik"dir.

*Torpağı alacağımızı*
*əvvəldən bilirdilər,*
*Oğul doğulduğumuzda*
*şəhidlik bahası*
*şirinlik alırdılar.*

Bu da bir gerçək. Bunun da şərhə ehtiyacı yoxdur. Sadəcə susmaq və həmin o sükutla o şirinliyin həm dərinliyinə, həm də zirvəsinə baş vurmaq lazımdır. Onda müharibənin də, şirinliyin də və ən nəhayət, bütövlükdə "Bir adamlıq şəhər"in də bütün cizgiləri, bütün naxışları, bütün yaşantıları və yaşanacaqları özü-özlüyündə sərgilənəcək. Həm ürəyində, həm gözlərinin önündə. Mən elə bu fikirlərimə söykənərək İlham əmioğluma "Bir adamlıq şəhər"in sevincini arzu edirəm.

**Əbülfət MƏDƏTOĞLU**